*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 398-403*

https://doi.org/10.62837/2026.4.398

**MIRZƏYEVA NIGAR TƏRLAN QIZI**
**Bakı Xoreoqrafiya Akademiyasının**
**Baletmeyster sənəti kafedrasının müəllimi**
**nigarmirzaeva1@gmail.com**

# BUTA VERGİSİ

Xülasə

Bu məqalə həyatları boyu yer üzərində öz missiyaları haqqında düşünən oxucu auditoriyası üçün nəzərdə tutulub. Mən seçilmişlərdən ola bilərəmmi? Niyə görə seçilmişlərdən? Həyatın mənasını anlamaq, ruhun inkişafını tezləşdirmək, özünə və başqalarına daha qısa müddətdə bütün suallara cavab tapmaq, dünyəvi və mənəvi həyatın bütün faydalarına tez nail olmaq üçün məqalədə Azərbaycanın həyatı, bərəkəti, əbədiliyi, odu təcəssüm etdirən rəmzi təmsil edən “Buta” ornamentindən bəhs edilir.

Başqa mədəniyyətlərlə paralel aparılır və bu simvol onların milli xüsusiyyətləri kontekstində nəzərdən keçirilir. Ayrı-ayrı ərazilərdə qədim insanlar arasında “Buta” rəmzinin dərk edilməsi və “Bootes” bürcü ilə bağlılıq əlaqəsi, eyni məna yükü daşıyan, həyatın, əbədiliyin başlanğıcı olan 9 rəqəmi haqqında danışılır.

Məqalənin sonunda oxucu meditasiya vasitəsi ilə başqa ölçünün səltənətinə dəvət olunur, “Ata-Tanrı, Ana-Tanrıça” dan kişi və qadın enerjisinin simvolu olduğu bənövşəyi daşı hədiyyə alır. Bənövşəyi alov şəxsi təkamül, dünya sülhü və bəşəriyyətin çevrilməsi üçün güclü mənəvi vasitədir.

**Açar sözlər :** bənövşəyi atəş, buta, sirr, Tanrı və Tanrıça

“Mən seçilmişlərdən ola bilərəmmi?” - bəzi insanlar yaşadıqca bu suala cavab axtarır. Ey dost, açdığın məqalə onda elə sənin üçün ünvanlanır, başqası üçün maraq göstərməz, hətta lazımsız gələr.

Milli parçalarımızda, Azərbaycanın xalçalarında, memarlığında, bina daxili bəzəklərində, folklorunda və digər incəsənət nümunələrində geniş istifadə olunan – “Buta” bizim bu gün də vasitəçimizə çevriləcək, bizə yeni güc və qüvvət bəxş edəcək.

Görəsən niyə məhz buta? Bəlkə şərq mədəniyyətində xüsusən Azərbaycanda gözəl bəzək elementlərindən biri olduğuna görə? Tapmacanı tapmaq üçün bir ipucu verim sizə! Bakının gerbi üstündə də buta yerləşir. Nədir bu təsadüf, bəlkə keçmişdən gələn bir nişanə?

Buta-alov, qönçə deməkdir. Zərdüştlük dövründə kök salan, bizlərə verilən hədiyyədir. Həyatın ilkin başlanğıcı, günəşin, odun müqəddəs rəmzi. Xəstəlikdən bədnəzərdən qoruyar bizi, görünməmiş iki aşiqin arasında buta, xəyali vasitəçi.

Bağışlanan hədiyyə buta naxışlı olsaydı, həmin insana xoşbəxtlik, əminamanlıq payı verilərdi. Butanın içində niyyət məktubları yazılardı. Xızır-İlyas tərəfindən "buta verilməsi" yəni eşq şərbətinin içizdirilməsi, qeyri-adi sevginin, istedadın, heçkəsdə olmayan, fərqli xüsusiyyətli bir gücün verilməsi deməkdir. Aşiqə aşiqlik, şairə şairlik bəxşiş edilərdi. Buta alınması yuxuda baş verərdi, beləliklə yuxu və buta bir vəhdət təşkil edərdi.

Amma buta simvolu təkcə şərq və bizim milli özəlliklərimizin daşıyıcısı kimi qəbul etmək düzgün olmaz. Düzdür Azərbaycanda çoxdur buta növləri, onları sadalamaq burda yoxdur məqsədimiz. Bircə məhəbbət və sədaqəti simvolizə edən ikili buta naxışında vurğunu edək , bu işarə ilə yeni , daha geniş fikrə addım ataq.[2]

Bir-birini tamamlayan, bütövlük rəmzini daşıyan, iki hissədən ibarət butalar, həmçinin "İn və Yan" Çin taoist fəlsəfəsinin aparıcı nişanələrindən biridir. İn-kölgəli tərəfi, Yan-günəşli tərəfi ifadə edir. Bu ikiliyin, qadın və kişi, eləcə də həyatın işıq və qaranlıq simvoludur. Qara və ağ balıqlarla diaqramm böyük taoist fəlsəfəsi termini simvollaşdırır.

Hər şeyin bir-birindən ayrılmaz iki əks qütbü vardır. İn və Yan qütbü. Harda İn və Yan qütbləşməsi meydana çıxarsa, orda hərəkət başlayar. "Bir"heçlikdən gəlir, "iki" isə birdən yaranır. Qalan hər şey "iki"nin yəni, İn və Yanın tükənməyən dəyişən və dönüşən əlaqəsinin məhsulu olaraq meydana gəlir. Elə həmin əks qütblər də, elektrik axını, cəzb etmə və itələmə qüvvələrini yaradır. Əks qütblərdən biri digəri olmadan müstəqil mövcud ola bilməz.

Gecə var ki, gündüzə də yer olar. Şərq tibbində bədən və ruhi vəziyyət ayrı tutulmur.Bir qütbün hakimiyyətinin ən güclü olduğu yerdə əks qütb özünü büruzə verməyə başlayır.Əks qütblər bir-birinə çevrilə bilən quruluşdadır. İn Yan-a və Yan de İn-ə dönüşə bilər. Bu, bitməyən sonsuz hərəkəti labüd hala gətirir, hərəkət daima davam edir,qış yaya,payız bahara,qaranlıq aydınlığa çevrilir. Qütblər bir-birini yaratdığı, dəstəklədiyi kimi eyni şəkildə məhv edən, məhdudlaşdıran əlaqəsində də ola bilərlər.

Beləliklə İn və Yan böyük fəlsəfəsi, bizim milli butada öz əksini tapır və məhəbbət simvoluna dönən ikili buta, buna gözəl sübut kimi seçilir. Amma buta təkcə Azərbaycanda, İranda və Hindistanda – fars irsi olan ölkələrdə yayılmayıb, o həmçinin Türkiyə, Misir, Şərqi Asiya ölkələrində yaşayır. Nə ilə görəsən bağlı ola bilər butaya bağlılıq? Nə vaxt kök salıb gözə görünməyən sevgi, meyillilik?

Buta – doqquz rəqəmindən yaranan tilsimli rəqəmdir. Hər rəqəmin özəlliyi və sirri var. Doqquz döl deməkdir. Müqəddəs rəqəmi istənilən başqa rəqəmə vurduqda, alınmış ədədin rəqəmlərinin cəmi yenə doqquza bərabər olur: 9x3=27 (2+7=9); 9x7=69 ( 6+3=9) və.s

Budur onun özəlliyi, təkrarolunmazlığı. Hər doqquzdan başlanan, doqquza da qayıdar. Ana bətnində yaranan döl, ana torpağda müvəqqəti qalıb, yenə ana bətninə qayıdar.

Doqquz – həyatın dövrü, buta deməkdir. Kimdir bəxş edən onu? Şumerlərdə onun adı – “ut”,“atəş” deməkdir. Axır çatdıq tapmacanın açmasına. Buta demək alov, qönçə, həyatın ilkin başlanğıcı, günəşin, odun müqəddəs rəmzi. İndi isə ulduzlu səmaya diqqət yetirək. Şimal yarımkürəsində “Volopas” adında ən gözəl bürcə rast gəlmək olar. [4]

Onun qədim adı – “Buta” ulduzlarının ardıcıllığı isə, sanki Şumer gil löhvələrindən və Azərbaycan xalçasından çəkilmiş həmin butaya bənzəyir. Qədim Misirdə həmin bürcü “Bootes” adlandırırdılar. Misirlilər, eyni zamanda ona “Smart”, yəni “Böyük Hökmdar”, o kəs ki, idarə edir, “Тот кто правит” deyirdilər. Təsadüf deyil ki, rus dilində onun tərcüməsini ifadə etdik. “Tot” original qədim misir dilində “ Dhwtu” səslənir. Bürcün adlarından biri isə təkcə misir keşişlərinə məlum olan ad – “Bau” idi, tərcümədə isə “gəliş” mənasını verir. “Bootes”- qədim insanlar üçün ulduz qapılarının keşikçisi və cənnət qapılarının gözətçisi idi. Qədim Misir, Yunanıstan, Roma, Fars, Midiya və Atropatena əraziləri ona sitayiş edirdilər.

Misirlilər bu bürcü insana bənzəyən öz tanrıları Osiris ilə əlaqələndirirdilər. Yunan mifalogiyasında “Bootes”- yerin ilk əkinçisi olan kral Keleyin oğlu Trittolemusun obrazıdır.

Yəhudilər qədim “Bo” kökü ilə əlaqələndirirdilər, bu isə həmin “gəliş” mənasını verir və məzmur 96:13 dən qeyd edildiyi kimi, gələcək Məsihlə bağlıdır. Amma maraqlısı budur ki, qədim zamanlarda bu bürc həm də tac və hakimiyyət uğrunda mübarizənin simvolu olub.

Hər kəsə tac – buta verilməz. Seçilmişlərə xasdır bu hədiyyə. Amma zaman dəyişib, insana verilən imkanlar, onunla bərabər tələblər artıb. Vaxtı ilə tək insanlara verilən töhfə, indi hər birimizin bəxşişi ola bilər. Seçilmişlər bizlər ola bilər, hər şey niyyətdən, bizim butaya inamımızdan, həmin vergini düzgün istifadə etməyimizdən asılıdır.

Buta-yaradanın kişi və qadın birliyidir. Tək Allaha, kişi və qadın birliyinə sitayiş on min il əvvəl yer üzündə mövcud olub. Lakin sonralar Allah kişi kimi təqdim edilib, Allah – ata kimi tanınıb. Kişi gücünün yanlış anlaşılması, yer üzünə çox bəlalar gətirdi. Onun güclü tərəfləri – güc, iradə, cəsarət və yeni bir şey yaratmaq istəyi unudulmuş oldu. Qədim keçmişdə Yaradanın ana cəhətlərinin hakim və əsas ibadət məbədinə çevrildiyi dövrlər də çox olub. Gözlənilməz zaman gəlib çatdı. Biz indi bir araya gətiririk böyük varlığımızı.

Qadın gücü ilahi məhəbbət, iman, şəfqət, qayğıkeşlik, yaradıcılıq ruhun dərk edilməsi, yaradanın kişi cəhətlərini möhkəmləşdirib, yeni bir güc yaradıcılıq iradəsi, qətiyyət yaradır. Kənara qoyaq analtik zehnimizi, öndə güvəndiyimiz ürəyimiz getsin, aparsın bizi, görünməyən cənnət qapıları görünüb açılsın, niyyəti təmiz olanlar bu gün vergi-buta payını alsın.

Ürəyimdəsən alov butamız
Ürəyim-buta , niyyət alovumu eşit

Ürəyim günəşin saf odu ilə yanır
Ürəyimdəki almaz mən özüməm özüm.

Tacımızdan çıxaq, müvəqqəti tərk edək cismimizi. Xızır İlyas və Tot mələkləri bizim bu səyahətdə bələdçilərimiz. Nur saçan cənnət qapılarının gözətçiləri, sevgi və ehtiyyatla hər iki əlimizdən tutur, həmin sehirli “Buta” bürcünə bizi çatdırır.[3]

Büllur saray gözümüzdə canlanır və qapısı qarşımızda açılır. Mələklərimiz böyük ehtiramla bizi içəri dəvət edir. Nəhəng qoşa yarpaq tağlı qapı geniş açılır və güclü qızıl işıq şüası bizi götürüb yuxarı qaldırır. Heç vaxt olmadığı qədər həyatla doluyuq, sərbəst uçur, üzür bu ölçünün səltənətində ruhumuz. Məbədə girdik, çoxlu əziz sima gördük. Onlar sevinirlər və bizi qucaqlayıb gülümsəyirlər.

Musiqi o qədər füsunkar və cəlbedicidir ki, gözlərimiz heyranlıqla yaşarır. Birdən ətrafımızda duranların hamısı kənara çəkilir. Zadəgan libasa bürünmüş əzəmətli kişi və cazibədar xanım bizi qarşılayır. Bu vaxta qədər gördüyümüz cütlüklərin ən gözəlidir. Nurlu və şəfqət simaları ilahi sevginin özüdür. Onların adları “Ata-Tanrı, Ana-Tanrıça”dır.

Ana əlini uzadır və çəhrayı daşı qoyur bizim ovucumuza. Ata əlini uzadır mavi daşı qoyur həmin ovuca. Birləşir çəhrayı ilə mavi rəngləri, bənövşəyi atəşinə çevrilir buta hədiyyəsi. Bu daşı həmişəlik ürəyimizə qoyuruq biz, bənövşəyi atəş Tanrı və Tanrıçanın bizə yadigarı. Bu ilahi gücə heyranlıqla təşəkkür edib səcdə edirik. “Vaxtdır” köməkçilərimizin pıçıltısını eşidirik. Xızır İlyas və Tot mələkləri bizim bu səyahətdə bələdçilərimiz bizim əlimizdən tutub pilləkənlərlə endirir bizi.

Güclü işıq şüasına daxil oluruq, bənövşəyi tacımızla yenidən cismimizə qayıdırıq. Ürəyimizdədir ata, ana bəxşişi bizlərə də verildi bənövşəyi buta vergisi. Bilin, bu gün verilən kiçik bənövşəyi daş Yaradanın dönüşən bənövşəyi alovundan bizə ayrılan payımızdır.

-Nədir bu atəşin gücü ?

Şəxsi və bəşəriyyət üçün göndərilən, şəfa gətirən vasitələrdən biri. Ruhu azad edən, xoşbəxtlik tapmağa kömək edən qorxunu sevincə çevirmək gücündə olan ruhumuzun bənövşəyi silahı.

Bizim iki ayağımız var, gedək ürəyimizin dalınca,
Gözümüz ikidir, iki oxuyaq ürəyimizin əsl niyyətini,
Bizim iki qulağımız var eşidirik ürəyimizin döyüntüsünü,
Ovucumuz ikidir, iki-yerləşdirək ovucumuza qəlbimizi !

Bənövşəyi atəşimiz qorxunu yox eyləsin, sevinclə sevgini, kişi və qadın gücünü canlandırsın. Verilən hədiyyələrə nə qədər açıq olsaq, zehnimizi ürəyimizlə bir etsək, özümüzlə barışsaq, özümüzlə bir olsaq yan keçər təhlükə bizdən. Verilən bəxşişi göz bəbəyimiz kimi qoruyaq, eyni zamanda onu gözləyən insanlara ötürək. Bəhrələnək hər zaman bizə verilən sərvətdən, ruhumuzun suallarını tez cavablandıraq.

Ata Tanrı və Ana Tanrıça şərəf duyurlar bizə xidmət etdikcə. Buta payları - Bənövşəyi atəş, birləşdirir kişi ilə qadını. Parıldayır hər birimizdə yaradanın iki qütbü – iki cahan məndə, Ata-Tanrı və Ana-Tanrıça. İki cahan hər birimizdə, Ata-Tanrı və Ana-Tanrıça.[5]

Sonda qeyd etdiyimiz ədəbiyyatı ətraflı təhlil edərək, ərsəyə gələn bu yazı işi azərbaycan dilində yazılan ilk məqalədir. Əsas məqsəd isə azərbaycan dilli oxuyucu auditoriyasına bütün dünyada bir yenilik kimi işlənən bu sahəyə dair məlumatların ötürülməsidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Ченнелинг через Нама ба Хала – «Крайон я касаюсь тебя» - Санкт-Петербург // издательство «Вектор» 2009
2. Бьянка Гайя-Диан Леблан – «Добро подаловать в пятое измерение!» //«Сосрия» 2010
3. Ронна Герман – «На крыльях света», послание надежды и вдохновения от Архангела Михаила - // «Сосрия» 2010. С-191-193
4. Аурелия Луиза Джоунз – «Телос», протоколы пятого измерения, книга 3 -// «Сосрия» 2010. С-113
5. Морис Сен-Жермен – «Цветок жизни:что дальше» - // «Сосрия» 2011

**Мирзоева Нигяр Тарлан**
**Педагог кафедры Искусство балетмеийстера**
**Бакинской Академии Хореографии**

**Сила Буты**

Резюме

Данная статья рассчитана на ту составную часть аудитории, которая на протяжении своей жизни задаются вопросами о своей миссии на земле. "Могу ли я быть избранным?" Избранным для того, чтобы совершив определённые действия, познавая смысл жизни, эволюцию души, в более сжатые сроки, помочь ответить себе и другим на все вопросы, и в скором времени достичь всех благ земной и духовной жизни.

В работе речь идёт об орнаменте - Бута, символе Азербайджана олицетворяющий жизнь, плодородие, вечность, огонь, а также являющийся проводником магической силы. Приводится параллель с другими культурами, и рассматривается этот символ в контексте их национальных особенностей.

Прослеживается связь с созвездием "Bootes", и связь единства в понимании символа Буты у древних людей на различных территориях, идентификация с цифрой 9, которая тоже несёт ту же смысловую нагрузку, являясь началом жизни, вечности.

В конце статьи имеет место медитация, где читающий переносится в высшие сферы другого измерения, и получает в дар от Отца - Бога и Матери - Богини фиолетовый камень, символ единства мужской и женской энергии, мощный духовный инструмент для личной эволюции, мира во всём мире и преображения человечества.

**Ключевые слова:** избранный, эволюция души, бута, фиолетовый пламень

**Mirzoyeva Nigar Tarlan**
**Teacher of the Ballet master`s department**
**of the Baku Choreographic Academy**

## BUTA'S POWER

## SUMMERY

This article is intended for those readers who have spent their lives questioning their mission on Earth: "Could I be the chosen one?" It speaks to those who seek to perform specific actions to understand the meaning of life and the evolution of the soul in a shorter timeframe, helping themselves and others find answers and soon attain all earthly and spiritual blessings.

The work focuses on the Buta ornament—a symbol of Azerbaijan representing life, fertility, eternity, and fire, while also serving as a conduit for magical power. The article draws parallels with other cultures, examining the symbol within the context of their unique national characteristics. It traces a connection to the constellation “Bootes” and explores the unified understanding of the Buta symbol among ancient peoples across various territories. Furthermore, it identifies the symbol with the number 9, which carries the same semantic weight as a symbol of the beginning of life and eternity.

The article concludes with a meditation that transports the reader into the higher spheres of another dimension. There, they receive a gift from the Father God and Mother Goddess: a violet stone. This stone symbolizes the unity of masculine and feminine energies and serves as a powerful spiritual tool for personal evolution, world peace, and the transformation of humanity.

**Keywords:** Buta symbol, spritural evolution, meaning of life, eternity

**Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru,  Lyudmila Həsənova**